Avqustun 29-da Təhsil Nazirliyində uşaq hüquqlarının müdafiəsi sahəsində fəaliyyət göstərən yerli və beynəlxalq təşkilatlarla "Dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-İnstitusionalizasiya) və alternativ qayğı" Dövlət Proqramının icrası məsələlərinə həsr olunmuş növbəti tədbir keçirilib. Tədbirdə uşaq hüquqlarının müdafiəsi QHT alyansının nümayəndələri Save the Children Azərbaycan, Azərbaycana Birgə Yardım (UAFA), Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi, Humanitar Uşaq fondu "Buta" , SOS uşaq kəndləri Assosiasiyası , Əqli sağlamlıq təşəbbüsü təşkilatının təmsilçiləri iştirak ediblər. Uşaqların internat müəssisələrindən ailələrə verilməsi, habelə bu müəssisələrə uşaqların yeni qəbulunun qarşısının alınması mexanizmini özündə birləşdirən uşaq müdafiəsi sisteminin yaradılması barədə müzakirələr aparılıb. QHT-lər tərəfindən Təhsil Nazirliyinə qeyd olunan proqramın icrasını təmin edəcək mükəmməl uşaq müdafiəsi sistemi üzrə model təklif olunub.Tədbirdə nazirliyin proqramın əlaqələndiricisi olması nəzərə alınaraq həmin modeli Təhsil Nazirliyinin dəstəyi əsasında yaradılmasının zəruriliyi vurğulanıb. Ekspertlər yekdilliklə qeyd ediblər ki, proqramın uğurlu icrası üçün 3 əsas amil - uşaq müdafiəsi agentliyi, yerli səviyyədə uşaqlar və onların ailələrinə xidmətlər, bu sahədə əhalinin maarifləndirilməsi sahəsində gərgin iş aparılmalıdır. Tədbirdə Təhsil, Beynəlxalq və QHT-lər təklif olunan modelin ölkənin bir sıra rayon və şəhərlərində sınaqdan keçirilməsini tövsiyə edib. Eyni zamanda Təhsil Nazirliyi ilə bu sahədə qabaqcıl təcrübəyə malik mütəxəssis və QHT- lərlə məsləhətləşmələrin davam etdiriləcəyi qərara alınıb.